**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

# "SIĞORTA İŞİ"

***( 5 kredit (AKTS))***

***Müəllim (mühazirə) b/m A.R.Məmmədova***
***Müəllim(seminar):b/m A.R.Məmmədova***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 114
**İş nömrəsi: 268 94 53**
**Mob**: 055 906 06 99
**İş saatları: 9 00 – 17 00**
**E-mail:** m.arzu74@bk.ru (seminar)
**Yaz semestri: 2022**

**GƏNCƏ- 2022**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

***Kurs cədvəli***

***Fənnin təsviri***

Bazar münasibətləri şəraitində iqtisadiyyatın mühüm sahələrindən olan sığortanın rolu və əhəmiyyəti daha da artır.

Sığorta – müəyyən hadisələr (sığorta halları) baş verdikdə fiziki və hüquqi şəxslərin sığorta haqlarından formalaşan pul fondları (sığorta mükafatları) hesabına onların əmlak (həyat, məsuliyyət) mənafelərinin qorunması ilə bağlı münasibətlərdir.

Sığorta bazarının formalaşmasının və inkişafının obyektiv əsasını sığorta müdafiəsinə olan ictimai tələbat təşkil edir. Əvvəlcədən nəzərdə tutulmayan təbii, texnogen və başqa hadisələr baş verdikdə sığorta dövlət maliyyəsinin möhkəmlənməsinə pozitiv təsir göstərir, pozulmuş əmlak mənafelərinin bərpa olunmasına təminat verir. Sığorta həm sığorta halları baş verdikdə sığortalını ona dəymiş ziyanların ödənilməsi ilə bağlı xərclərdən azad etməklə, dayanıqlı inkişafın mühüm şərti olan uzunmüddətli investisiyaların sabit mənbələrindən birinə çevirir.

Sığortanın iqtisadi mahiyyəti hüquqi və fiziki şəxslərin sığorta haqları hesabına formalaşan və onlara təbii fəlakət və digər səbəb üzündən dəymiş zərərin ödənilməsi üçün istifadə edilən məqsədli pul vəsaitləri fondlarının yaradılması və istifadəsilə bağlıdır. Ona görə də bu sahənin mütəxəssisləri sığorta işinin mahiyyətini və funksiyalarını yaxşı bilməli, sığorta fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsinin xüsusiyyətlərini dərindən öyrənməlidir.

Sığorta işinin təşkili fənninin başlanğıc hissəsində sığortanın iqtisadi mahiyyəti, ictimai həyatda rolu, funksiyaları, sığortanın əsas anlayışları, sığortanın formaları, növləri və siniflərinin öyrənilməsi nəzərdə tutulmuşdur.

Fənnin sonrakı mərhələsinə daxil edilən sığortanın hüquqi əsasları, sığorta müqaviləsi o cümlədən sığorta müqaviləsinin bağlanmasına hazırlıq, bu sahədə sığorta vasitəçilərinin rolu, sığorta müqaviləsinin etibarsız sayılması, sığorta müqaviləsində sığorta münasibətləri subyektlərinin hüquq və vəzifələrinin də tələbələr tərəfindən öyrənilməsi tələb olunur.

Sığorta işinin mühüm sahələrindən biri də sığorta işinin təşkili və maliyyə sabitliyinin təmin edilməsidir. Ona görə də sığorta işinin təşkili formaları sığorta şirkətərinin fəaliyyətinə Dövlət Sığorta Nəzarəti Xidməti orqanı tərəfindən lisenziyanın verilməsi şərtləri, onların fəaliyyətinə nəzarət və fəaliyyət üçün verilmiş lisenziyanın geri alınması halları, həmçinin sığortaçının maliyyə sabitliyini və ödəmə qabiliyyətini təmin edən nizamnamə kapitalının formalaşdırılması və minimum məbləği, xüsusi təminatın formalaşdırılması mənbələri, ödəmə qabiliyyətini təmin edən normativlər, sığortaçının ehtiyyatları, texniki ehtiyatlar, qarşısalınma tədbirləri fondu, sığortaçının aktivləri, sığortaçının öhdəlikləri, sığorta bazarı və sığorta işində marketinq məsələlərinin tələbələr tərəfindən öyrənilməsi tələb olunur.

Sığorta işi fənninin mühüm hissələrindən biri də növlər üzrə sığorta obyektlərinin sığorta təminatına qəbul edilməsi işinin həyata keçirilməsidir. Növlər üzrə sığorta obyektlərinin sığorta təminatına qəbul ediməsində təsir edən amillərindən biri də sığorta fəaliyyətində tədbiq edilən tarif dərəcələridir. Sığortaçı ilə sığortalı arasında sığorta münasibətlərində düzgün qurulması və tərəflərin hüquq və mənafelərinin qorunması əsas məsələlərdəndir. Bu baxımdan ayrı–ayrı növ şəxsi, əmlak və mülki məsuliyyətin sığortalanması işinin hərtərəfli öyrənilməsi çox vacibdir.

***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

- Sığortanın tarixi və inkişaf mərhələləri;
- Sığortanın mahiyyəti və funksiyaları;
- Sığortanın əsas anlayışları;
- Sığortanın formaları, növləri və sinifləri;
- Sığortanın hüquqi əsasları;
- Sığorta müqaviləsinin mahiyyəti və tərtibi qaydası;
- Sığortanın təşkili formaları;
- Sığorta təşkilatlarına lisenziyaların verilməsi;

- Sığortaçının maliyyə sabitliyinin əsasları;
- Sığorta bazarının mahiyyəti və subyektləri;
- Sığorta marketinqi və onun funksiyaları;
- Sığorta fəaliyyətində tarif sistemləri;
- Şəxsi (həyat) sığortasında sığorta münasibətləri;
- Bədbəxt hadisələrə qarşı sığortalanmaların elementləri;
- Tibbi sığortada sığorta münasibətləri;
- Kənd təsərrüfatında əmlak sığortası;
- Sosial sığortanın və sosial müavinətin mahiyyəti, əhəmiyyəti, vəzifələri və məqsədi;
- Azərbaycanda dövlət təqaüd sistemi və onun strukturu;
- Daşınmaz əmlakın icbari sığortaçısının mahiyyəti və icrası qaydaları;
- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının mahiyyəti və icrası ardıcıllığı;
- Sığorta təşkilatlarının ödədiyi vergilər və onların ödənilmə qaydası;
- İnkişaf etmiş ölkələrdə sığorta işinin təşkili xüsusiyyətləri və onların fərqli cəhətləri;

*Fənn üçün 60 saat (5 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə 2 saat mühazirə və hər həftə 2 saatlıq seminar var.*

***Fənnin tematik təqvimi***

| № | Mövzuların adları | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | mühazirə | seminar |
| 1 | Sığortanın iqtisadi mahiyyəti və rolu | 4 | 2 | 2 |
| 2 | Sığortanın əsas anlayışları. Sığortanın formaları və növləri | 4 | 2 | 2 |
| 3 | Sığortanın hüquqi əsasları. Sığorta müqaviləsi | 4 | 2 | 2 |
| 4 | Sığortanın təşkili və maliyyə sabitliyi | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 5 | Sığorta bazarı və sığorta işində marketinq | 4 | 2 | 2 |
| 6 | Sığorta fəaliyyətində tarif sistemləri | 4 | 2 | 2 |
| 7 | Kənd təsərrüfatında əmlak sığortası | 4 | 2 | 2 |
| 8 | Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası | 4 | 2 | 2 |
| 9 | Daşınmaz əmlakın icbari sığortası . Əmanətlərin və kreditlərin sığortası | 4 | 2 | 2 |
| 10 | Şəxsi (həyat) sığorta | 4 | 2 | 2 |
| 11 | İstehsalatda bədbəxt hadisələr və peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta. Tibbi sığorta | 4 | 2 | 2 |
| 12 | Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası. Auditorun peşə məsuliyyətinin icbari sığortası | 4 | 2 | 2 |
| 13 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası. | 4 | 2 | 2 |
| 14 | Sosial sığorta. Azərbaycanda əmək pensiyaları. | 4 | 2 | 2 |
| 15 | Sığortaçıların vergiyə cəlb olunması. İnkişaf etmiş ölkələrdə sığortanın ümumi xarakteristikası | 4 | 2 | 2 |
| | Cəmi: | 60 | 30 | 30 |

## *Mühazirənin quruluşu*

Mühazirə müddəti 80 dəqiqə olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyyələr:****Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya Komissiyası şikayət edə bilərsiniz. Apelyasiya Komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

***Tövsiyə olunan ədəbiyyat***

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 2008.
3. Sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
4. Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
5. Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002.
6. Əmanətlərin sığortası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2006
7. Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2007.
8. Azərbaycan Respublikasında icbari sığortalar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2011.
9. A.Kərimov. Sığorta. (Sığortaçının stolüstü kitabı) Bakı, 2000.
10. B.A.Xankişiyev, P.N.Abdullayev. Sığorta işi. (dərs vəsaiti) Bakı, 2004.
11. Sığorta (Normativ Hüquqi Aktlar) Bakı, 2005.
12. Страховое дело. Учебник. под Проф. Рейтмана Л.И., Москва, 1992.
13. И.Т.Баланов, А.И.Баланов. Страхование. Москва, 2002.
14. M.M.Sadıqov, M.C.Hüseynov, H.H.Həsənov "Kənd təsərrüfatının maliyyəsi". Gəncə 2012.
15. E.R.İbrahimov, M.C.Hüseynov ,A.R.Məmmədova . Sığorta işi üzrə praktikum . Bakı ,2015